**UOT 32**

# SSRİ-nin SÜQUTUNDAN SONRA ABŞ-in MƏRKƏZİ ASİYA STRATEJİ SİYASƏTİ

**Mehrac ALLAHVERDİYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 24 aprel 2025; çapa qəbul edilmişdir: 5 may 2025; online-da çap edilmişdir: 15 may 2025.

Received: 24th of April, 2025; accepted: 5th of May, 2025; published online: 15th of May, 2025.

**Açar sözlər:** *ABŞ, Mərkəzi Asiya, SSRİ, Avrasiya, hərbi əməkdaşlıq, iqtisadi əmədaşlıq, regional inteqrasiya*

## Giriş

Mərkəzi Asiyanın geosiyasi əhəmiyyəti, zəngin neft və qaz yataqları ilə birlikdə, bu regionu böyük dövlətlərin maraq dairəsinə daxil etmişdir. ABŞ, Rusiya, İran, Türkiyə və Çin kimi nəhəng dövlətlər Mərkəzi Asiyaya maraq göstərərək burada strateji məqsədlərini həyata keçirmək istəyirlər. 1991-ci ildə SSRİ-nin süqut etməsi və postsovet dövlətlərinin müstəqillik qazanması ilə Avrasiya regionunun geostrateji əhəmiyyəti daha da artmış və bu dövrdən etibarən, ABŞ və NATO ölkələri Mərkəzi Asiyada öz təsirini artırmağa çalışmışlar.

SSRİ-nin dağılması ilə Mərkəzi Asiya ölkələri beynəlxalq münasibətlər sisteminə daxil oldu. 1991-ci ilə qədər bu region SSRİ-nin tam təsiri altında olduğu üçün ABŞ və digər Qərb dövlətləri burada öz maraqlarını həyata keçirə bilmirdilər. Lakin müstəqillik əldə etdikdən sonra bu dövlətlər, ABŞ-ın da daxil olduğu böyük güclərin diqqətini cəlb etməyə başladılar. Artıq Mərkəzi Asiya yalnız regional deyil, həm də qlobal geosiyasi müstəvidə əhəmiyyətli rol oynamağa başladı.

Mərkəzi Asiyanın strateji mövqeyi, onun Avropa və Asiyanın kəsişməsində yerləşməsi, enerji resursları və ucuz işçi qüvvəsi ilə zəngin olması, bu regionu dünya gücləri üçün cəlbedici edir. ABŞ, bu regionda öz hərbi bazalarını yerləşdirmək, enerji resurslarına nəzarət etmək və radikal islamın təsirini azaltmaq məqsədilə müxtəlif strategiyalar həyata keçirir. Bu səbəbdən Mərkəzi Asiya ölkələri ABŞ ilə əməkdaşlıq edərək öz milli maraqlarını qorumağa çalışırlar.

Beləliklə, Mərkəzi Asiyanın geosiyasi əhəmiyyəti yalnız regional deyil, eyni zamanda beynəlxalq miqyasda da özünü göstərir. Bu vəziyyət ABŞ-ın Mərkəzi Asiya siyasətinin formalaşmasında mühüm rol oynayır [2, s. 3].

## 1. Mərkəzi Asiya regionunun strateji əhəmiyyəti

Mərkəzi Asiya regionu 4 milyon km.$^2$ əraziyə malik olub Avrasiyanın ən əhəmiyyətli geosiyasi bölgələrindən biri hesab olunur. Bu regiona ümumi əhali sayı 55 milyon nəfər olan 5 dövlət daxildir: Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan. Mərkəzi Asiyaya daxil olan dövlətlər özünün nəqliyyat, kommunikasiya, təbii enerji

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* mehrac2oo1a@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.1035**

resursları ilə digər regionlardan xüsusi olaraq seçilir [1, s. 544].

Sözügedən beş Mərkəzi Asiya dövlətinin hər biri özünəməxsus imkanlara malikdir. Qazaxıstan, Özbəkistan və Türkmənistan qaz və neftlə, Qırğızıstan və Tacikistan isə suvarma sistemləri ilə zəngindir. Bu ölkələr regionun ən aktiv enerjiyə sahib olan ölkələri sayılır. Onu da qeyd etmək lazımdır ki, buradakı enerji aktivliyi Qərbi Avropadan beş dəfə çoxdur. Bütün bu geostrateji faktorlar bütün dövrlərdə ABŞ, Avropa, Rusiya, Çin, Yaponiya kimi nəhəng siyasi gücə malik ölkələrin xüsusi maraqlarında olmuşdur.

Mərkəzi Asiya Çar Rusiyası zamanı "Türküstan" olaraq adlandırılmış, 1920-1930–cu illər ərzində isə hər birinin etnik mənsubiyyətə əsasən ayrı-ayrı respublikalara bölünmüşdü. SSRİ-nin süqutundan sonra Mərkəzi Asiya dövlətləri beynəlxalq münasibətlər sisteminə daxil oldu. Lakin qeyd etmək lazımdır ki, 1992-ci ilə qədər Qazaxıstan bu regiona daxil edilmirdi və region sadəcə "Qazaxıstan və Mərkəzi Asiya" olaraq adlanırdı. Lakin elə həmin ildə Daşkənddə baş tutan sammitdə Qazaxıstan prezidentinin təklifi ilə Qazaxıstan dövləti də "Mərkəzi Asiya" regionu termininə daxil edildi.

Onu da qeyd etmək yerinə düşər ki, 1991-ci ildə SSRİ dağıldıqdan sonra ən son müstəqillik əldə edən dövlətlərdən biri də, məhz Qazaxıstan Respublikası olmuşdur. Müstəqillikdən sonra Qazaxıstan xarici siyasətdə ABŞ, Rusiya, Çin kimi dünyanın böyük ölkələri ilə qarşılıqlı əlaqələr yaratmışdır. Eyni zamanda, bu ölkə MDB, BMT, ATƏT, TÜRKSOY, Avrasiya İqtisadi Birliyi kimi təşkilatların da fəal üzvüdür [4, s. 46-47].

Qazaxıstan, həmçinin iqtisadi baxımdan ÜDM-nin 60%-i ona məxsus olduğundan Mərkəzi Asiyada ən dominant ölkədir. O, böyük mineral sərvətlərə malikdir və neft-qaz sənayesi ölkənin başlıca gəlir mənbəyi hesab olunur.

Sovet İttifaqının süqutundan sonra müstəqillik qazanan daha bir dövlət Türkmənistandır. Türkmənistan Asiyada ən az məskunlaşılan ərazi olaraq tanınır. Ölkə 144 neft və qaz yatağına görə dünyanın ən öndə gedən ölkələrindən biridir. Neft və qazçıxarma respublikanın əsas ixtisaslaşmış sahələri olduğu üçün ölkənin də əsas gəlir sahələri hesab olunurlar.

Mərkəzi Asiyada yerləşən dövlətlərdən biri də, Özbəkistandır. 35 milyon nəfərdən çox əhali sayına sahib olduğu Özbəkistan regionda birinci yeri tutur. Asiyada ən böyük qızıl mədəni də, məhz Özbəkistanda yerləşir. Dünyada isə 4000 tonluq qızıl ehtiyatına görə beşinci yerdədir. Sənaye əhəmiyyətli təbii qaz ölkənin əsas yanacaq resursu hesab olunur.

Regionun zəngin qızıl, gümüş və alüminium yataqlarına sahib olan daha bir ölkəsi Tacikistandır. Tacikistan regionda böyük hidroresurslara, suvarma sistemlərinə malik olan iki əsas ölkədən biri hesab edilir. Buna görə də o, hidroenerji potensialına görə dünyada 8-ci yeri tutur. Lakin vurğulamaq lazımdır ki, bu ölkənin dənizə çıxışı yoxdur.

Regionun dənizə çıxışı olmayan dövlətlərindən ikincisi də Qırğızıstandır. Qırğızıstan da regionun digər dövlətləri kimi qızıl, mis, dəmir filizi, neft və kömür ehtiyatları ilə zəngindir. Qırğızıstan region dövlətlərindən Qazaxıstan, Özbəkistan, Tacikistanla, dünya dövlətlərindən isə ABŞ, Rusiya, Çin, Türkiyə, İsveçrə ilə ticarət əlaqələri saxlayır. Buradakı əlvan metalların təxminən 40%-indən çoxu xaricə ixrac edilir. Mərkəzi Asiyada bu dövlət Ümumdünya Ticarət Təşkilatının üzvü olan yeganə dövlətdir. Bununla yanaşı, Qırğızıstan BMT, MDB kimi beynəlxalq, Mərkəzi Asiya Əməkdaşlığı və Avrasiya İqtisadi Birliyi kimi regional təşkilatların da üzvüdür [8, s. 4-5].

SSRİ dağıldıqdan sonra müstəqillik əldə edən Mərkəzi Asiya dövlətləri demək olar ki, eyni siyasi-iqtisadi problemlərlə qarşılaşdılar. Bu problemlər region dövlətlərinin arasında olan inteqrasiya məsələlərinin sürətlənməsi üçün imkan yaradırdı. Bu inteqrasiya prosesi regiondakı dövlətlərin etnik müxtəliflikləri arasında münaqişələrin və ayrıseçkiliyin qarşısının alınmasına yönəlmişdi.

Region dövlətlərini bir-birinə daha da yaxınlaşdıran bir sıra daxili faktorlar vardı.

İlk faktor olaraq regionun 5 dövlətinin dininin islam dininə ibadət etməsi, 4 dövlətinin isə türk kökənli olmasını qeyd etmək olar. Lakin buna baxmayaraq, ümumilikdə onlar dünyəvi dövlət hesab olunurlar. İslam fundamentalizminin ölkələrinə müdaxilə etməməsinə çalışırlar və bununla bağlı mübarizə aparmaları onları birləşdirən daha bir faktordur. Onlar arasında inteqrasiyanı formalaşdıran digər bir səbəb regionun üç dövlətində digər xalqların etnik birliklərinin yaşaması və buna görə də sərhədlərinin etnik əraziyə uyğun gəlməməsidir. Eyni zamanda, Çar Rusiyası və SSRİ dövründə formalaşmış hidroresursları və təsərrüfat sahələri də region dövlətlərini yaxınlaşdıran amillərdən biridir.

Yuxarıda qeyd olunan amillərə baxmayaraq, təəssüf ki, son otuz il ərzində Mərkəzi Asiya ölkələri müəyyən regional ittifaqlar formalaşdıra bilməmişlər. İttifaq yaratmaq məqsədilə atılan bütün addımlar isə uğursuzluqla nəticələnmişdir. Yalnız dünyanın böyük dövlətlərinin vasitəsi və iştirakı ilə regionun beş dövləti müxtəlif ittifaqların yaranmasında iştirak edə bilmişdir [2, s. 1].

Mərkəzi Asiya xüsusi əhəmiyyət kəsb edən geostrateji mövqeyə malik olduğu üçün hər zaman hegemon dövlətlərin, beynəlxalq təşkilatların diqqətini özünə cəmləmişdir. Bu regionu 2 əsas amil hər zaman önə çəkmişdir:

1. Mərkəzi Asiyanın Avropa və Asiyanın qovşağında yerləşdiyinə görə onun dünyada əsas kommunikasiya və nəqliyyat dəhlizi kimi tanınması;

2. Geostrateji əraziyə, təbii enerji resurslarına, xammal və enerji ehtiyatlarına sahib olması, eyni zamanda ucuz işçi qüvvəsi, satış imkanlarının genişliyinin mövcudluğu.

Yuxarıda sadalanan hər iki amillə yanaşı, regionun beynəlxalq sülh və təhlükəsizlik məsələlərində kəsb etdiyi əhəmiyyət də onu dünya geosiyasətinin mərkəzinə gətirmişdir. Bu da öz növbəsində ABŞ, Avropa, Çin, Yaponiya, Rusiya, Türkiyə, İran kimi dövlətlərin, Avropa İttifaqının və NATO təşkilatının Mərkəzi Asiyada öz geosiyasi hədəflərini həyata keçirmək üçün əsas faktorlardan biri olmuşdur. Mərkəzi Asiyada ölkələrarası beynəlxalq münasibətlər bir sıra istiqamətləri əhatə edir:

1. Regionda ABŞ, Rusiya, İran, Türkiyə, Çin kimi hegemon dövlətlərin milli maraqları;

2. Regionun böyük və kiçik dövlətləri ilə onlara maraq göstərən dünya dövlətləri ilə münasibətləri;

3. Regionun xüsusi strateji əhəmiyyəti ilə seçilən dövlətlərinin bir-biri ilə münasibətləri.

Mərkəzi Asiya təkcə beynəlxalq deyil, həm də regional əhəmiyyət kəsb edir. Mərkəzi Asiyadakı hər bir dövlət öz milli marağı və mövqeyindən çıxış edərək regionda xarici siyasət yürüdür, eyni zamanda həm region ölkələri, həm də dünya ölkələri ilə əlaqələr qurur, siyasi, hərbi, iqtisadi bloklar yaratmağa çalışır. Lakin bəzi hallarda isə bu dövlətlər digər hegemon dövlətlərlə toqquşur və nəticədə isə regionda müxtəlif qarşıdurmalar, münaqişələr və bloklaşmalar baş verir [1, s. 542].

## 2. SSRİ dağıldıqdan sonra ABŞ-ın geosiyasi maraqlarında Mərkəzi Asiya

SSRİ dağıldıqdan sonra Mərkəzi Asiya regionunda nəhəng Qərb dövlətlərindən biri olan ABŞ fəal şəkildə xarici siyasətini yürütməyə başlamışdır. Nəinki 1991-ci ildən sonra, hətta XX əsrin başlanğıcından etibarən bu region ABŞ-ın xüsusi maraqlarında yer almışdır. Lakin XIX əsrin sonu və XX əsrin əvvəllərində Mərkəzi Asiyada Çar Rusiyası və SSRİ-nin aparıcı mövqe tutması ABŞ kimi qərb dövlətlərinin buraya hər hansı bir müdaxilə etməsinə mane olmuşdur. Tarixin müxtəlif dövrlərində bu regionda türklər və ingilislər müəyyən müddət fəaliyyət göstərsələr də, Qərb dövlətləri burada uzun müddət möhkəmlənə bilməmişlər və heç vaxt da möhkəmlənmək fikrindən əl çəkməmişlər.

ABŞ-nın Mərkəzi Asiya ölkələrinə meyl etməsi bu bölgəyə olan xüsusi maraqları ilə əlaqəlidir. Rusiya və İran kimi ölkələr bu regionda möhkəmlənmək üçün region ölkələrində münaqişələr, qarşıdurmalar yaratdığı halda, ABŞ və digər Qərb dövlətləri incə bir

strategiya həyata keçirərək bu regionda sakitlik, demokratikləşmə yaratmağa, daxili münaqişələri sülh yolu ilə həll etməyə çalışırlar. Ona görə də Mərkəzi Asiya ölkələri həmin dövlətlər arasında seçim qarşısında qalırlar və bu da öz növbəsində müəyyən müsbət və ya mənfi təsirlərlə müşayiət olunur.

Ümumiyyətlə, dünya siyasətçiləri Mərkəzi Asiya regionunun geosiyasi əhəmiyyəti haqqında hər zaman araşdırmışlar. Bu siyasətçilər arasında X.Makkinder, Z.Bjezinski kimi görkəmli ABŞ siyasətçiləri də öz araşdırmalarında Mərkəzi Asiyanı son dərəcə əhəmiyyətli bir bölgə olaraq qeyd edirlər. Onlar yazırdılar ki, bu regionun ölkələri kifayət qədər zəngin qızıl ehtiyatlarına, saysız-hesabsız neft və qaz yataqlarına, suvarma sistemlərinə, bərəkətli torpaqlara sahibdirlər. Bununla yanaşı, həmin ölkələrin dəmir yolları, nəqliyyat və kommunikasiya imkanları, neft və qaz kəmərləri digər ölkələrlə geniş əlaqələrə yol açır. Hətta hər iki ABŞ politoloqu onu da düşünürdü ki, Mərkəzi Asiyaya sahib olmaq əslində elə bütün dünyaya sahib olmaq deməkdir [3, s.147-148].

Ona görə də ABŞ Mərkəzi Asiyada mövqeyini möhkəmlətmək və xüsusi maraqlarını həyata keçirmək üçün bir neçə istiqamət üzrə hərəkətə keçir. Birinci növbədə, region ölkələrində öz hərbi bazalarını yerləşdirir. Eyni zamanda burada NATO-nun da təsirini artırmağa çalışır ki, bu da dünyada sülhün bərqərar olmasında Mərkəzi Asiya ölkələrini də cəlb edir. İkincisi, regionda əmin-amanlıq yaratmaqla burada radikal islam dinin təsirinin azalmasına çalışır. Ona görə də ABŞ Mərkəzi Asiya ölkələrinə müxtəlif maliyyə yardımları edərək regionun enerji, nəqliyyat-kommunikasiya sistemlərinin təkmilləşməsinə dəstək olur. Son olaraq, ABŞ bu dövlətlərdə insan hüquqlarının təmini, demokratiyanın və vətəndaş cəmiyyətinin formalaşması istiqamətində müxtəlif addımlara imza atır.

ABŞ Avropa İttifaqının proqramları və NATO-nun sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində Mərkəzi Asiyada iqtisadi siyasət yürüdür. Bu siyasətin əsas məqsədi yaxın gələcəkdə bir çox hegemon dövlətlərin (Rusiya, İran və s.) regionda təsir gücünü azaltmaq və Qərb dövlətlərinin regiona nəzarətini təmin etməkdir [1, s. 549-551].

1991-2001-ci illər ərzində ABŞ-ın Mərkəzi Asiya dövlətlərinə olan əsas marağı onların təbii sərvətlərə və enerji resurslarına malik olması idi. Lakin 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ-ın regiona olan maraqları tamamilə dəyişdi. Belə ki, 11 sentyabr hadisələrindən ABŞ Mərkəzi Asiyanın ölkələrini strateji əhəmiyyətinə görə terrorizmlə mübarizədə (Əfqanıstan, İraq) istifadə edə biləcəyi strateji bir baza kimi görür. O vaxtdan bəri ABŞ Mərkəzi Asiyanın beş ölkəsi ilə təhlükəsizlik sahəsində əməkdaşlıq edir, təlim vermək, sülhməramlılıq və sərhəd təhlükəsizliyini gücləndirmək üçün müxtəlif proqramlar həyata keçirir. Milli Qvardiyanın Dövlət Tərəfdaşlığı Proqramı vasitəsilə beş Mərkəzi Asiya ölkəsindən dördü ABŞ-ın ştatları (Qazaxıstan-Arizona, Qırğızıstan-Montana, Tacikistan-Virciniya və Özbəkistan-Missisipi) ilə birləşərək, hərbi əlaqələri inkişaf etdirir və terrorla mübarizə və fəlakətlərə hazırlıq kimi sahələrdə müxtəlif təlimlər keçirir. Siyahıya daxil olmayan Türkmənistan isə 1996-cı ildən 2011-ci ilə qədər Nevada ilə əməkdaşlıq etmişdir [5, s. 32].

1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra ABŞ Qazaxıstanın müstəqilliyini tanıyan ilk ölkə olduğu üçün Qazaxıstanın Qərblə münasibətlərində ən çox önəm verdiyi ölkə də məhz ABŞ oldu. Qazaxıstanın xarici siyasətində ABŞ ilə münasibətlər mühüm əhəmiyyət kəsb edir. Ölkənin enerji sektoruna ən böyük investisiyaları da məhz ABŞ-a məxsusdur.

ABŞ Mərkəzi Asiya regionunda və Qazaxıstanda təhlükəsizlik baxımından ən təsirli ölkədir. ABŞ ilə əlaqələr nüvə təhlükəsizliyi, ticarət, investisiyalar, elm, texnologiya və ətraf mühit kimi bir çox məsələlər üzrə ikitərəfli razılaşmalar sayəsində inkişaf edib. Qazaxıstanın 1995-ci ildə imzaladığı tərksilah sazişi nəticəsində əlaqələr daha da yaxşılaşıb. Qazaxıstan ABŞ-ın yardımı və dəstəyi ilə beynəlxalq mövqelərini möhkəmləndirmiş, fəal iqtisadi əməkdaşlıqla 1998-ci il iqtisadi böhranından daha asan çıxmışdır. Qazaxıstan

da istənilən terror təhlükəsinə qarşı ABŞ-ın yanında olacağını və dəstəkləyəcəyini bəyan etmiş, həmçinin ABŞ-a terrorla mübarizə üçün öz hava limanlarından istifadə etmək hüququ vermişdir. Bununla da, Qazaxıstan və ABŞ-la hərbi və siyasi əməkdaşlığa yol açıldı [6, s. 124-126].

ABŞ Sovet İttifaqının dağılmasından sonra Qırğızıstanın da müstəqilliyini tanıyan ilk ölkələr sırasında oldu. ABŞ-ın Qırğızıstanla münasibətləri prezident Almazbek Atambayev dövründə (2011-2017-ci illər) qismən Rusiyanın təzyiqi ilə pisləşib. ABŞ-Qırğızıstan münasibətləri onun varisi prezident Jeenbekovun (2017-2020-ci illər) dövründə bir qədər yaxşılaşdı. 2014-cü ildən bəri ikitərəfli təhlükəsizlik əməkdaşlığı zəifləyib; Dövlət Departamenti terrorizm və ekstremizmlə mübarizədə və regional sabitliyin təşviqində əməkdaşlığı inkişaf etdirməyə çalışır. Yaxın bir neçə ildə ABŞ-ın Qırğızıstan üçün ayırdığı maliyyə yardımının əsas məqsədi korrupsiya ilə mübarizə, insan hüquqlarının qorunması, hüquq-mühafizə orqanlarında islahatları təşviq etmək, zorakı ekstremizmə qarşı mübarizə aparmaq və Qırğızıstan ordusunu peşəkarlaşdırmaq idi. ABŞ-ın digər prioritetlərinə Qırğızıstana daha əhatəli və hesabatlı demokratiyanın dəstəklənməsi və ölkənin biznes mühitinin yaxşılaşdırılması daxildir [9, s. 14].

Tacikistan da öz növbəsində Mərkəzi Asiyada daha geniş regional əlaqəni inkişaf etdirmək üçün Amerika Birləşmiş Ştatları ilə birgə fəaliyyət göstərir və ABŞ rəsmiləri onu Əfqanıstanda sabitliyin təşviqi üçün mühüm tərəfdaş kimi qiymətləndirirlər. ABŞ-ın Tacikistanla əlaqəsi, həmçinin, təhlükəsizlik sahəsində əməkdaşlığı, xüsusən də narkotiklər və terrorizmlə mübarizə, silahların yayılmaması və zorakı ekstremizmə qarşı mübarizəni də əhatə edir. ABŞ Tacikistanın müvafiq qurumlarını avadanlıq və təlimlərlə də təmin edir.

ABŞ-ın Özbəkistanla münasibətləri isə 2001-ci ildən 2005-ci ilə qədər nisbətən möhkəm idi və Əfqanıstanla bağlı təhlükəsizlik sahəsində əməkdaşlığa diqqət yetirilirdi. ABŞ-Özbəkistan münasibətləri 2005-ci ildə hökumət qüvvələrinin şərq şəhərində iğtişaşlar zamanı 100-dən çox silahsız mülki vətəndaşı öldürməsindən sonra ciddi tənəzzül yaşadı. Lakin bu əlaqələr 2016-cı ildən bəri nəzərəçarpacaq dərəcədə yaxşılaşıb və bu, ölkənin beynəlxalq əlaqələrinin daha geniş inkişafını əks etdirir [7, s. 30].

Mərkəzi Asiya ölkələrindən olan Türkmənistanın coğrafiyası və enerji resursları onu da ABŞ üçün potensial strateji tərəfdaşa çevirməyinə baxmayaraq, ölkənin repressiv hökuməti və siyasətdəki neytrallıq prinsipi ABŞ-Türkmənistan əlaqələrinin inkişafına mane olur. Çünki Türkmənistanın konstitusiyasında ölkənin xarici siyasətinin əsası kimi neytrallıq prinsipi göstərilir. Lakin iki ölkə arasındakı beynəlxalq əməkdaşlıq Türkmənistanın neytrallıq siyasəti ilə məhdudlaşmasına baxmayaraq, ABŞ-ın Türkmənistandakı fəlakətlərin qarşısını almaqda və sərhəd təhlükəsizliyini artırmaqda müəyyən siyasi maraqları var [10, s. 21].

**Nəticə**

Tədqiqatın nəticələri göstərir ki, ABŞ-ın Mərkəzi Asiya ölkələrinə olan marağı bu regionun strateji əhəmiyyəti ilə sıx bağlıdır. ABŞ, Mərkəzi Asiyada Rusiya və İran kimi hegemon dövlətlərin təsirini azaltmağa çalışaraq, Qərb dövlətlərinin burada daha güclü mövqe tutmasını təmin etmək məqsədini güdür. Bu siyasətin bir hissəsi olaraq, ABŞ, Mərkəzi Asiya ölkələrini terrorizm və regional münaqişələrdə hərbi baza kimi istifadə etməyə yönəlmişdir.

ABŞ-ın Mərkəzi Asiyadakı hal-hazırki siyasətinin əsas məqsədi, bu regiondan Əfqanıstan, İran və İraqla bağlı münaqişələrdə strateji dəstək əldə etməkdir. Bu səbəbdən, ABŞ region ölkələri ilə müxtəlif hərbi və siyasi əlaqələr qurmağa davam edir. Mərkəzi Asiya ölkələri ilə daha da yaxınlaşmaq üçün ABŞ, son otuz il ərzində təhlükəsizliyi artırmaq,

iqtisadi inkişafı dəstəkləmək və humanitar ehtiyacları ödəmək məqsədilə 9 milyard dollardan çox birbaşa yardım göstərmişdir.

Buna əlavə olaraq, ABŞ, Mərkəzi Asiya dövlətlərində demokratiyanın təşviqi, insan hüquqlarının qorunması və iqtisadi islahatların həyata keçirilməsi istiqamətində də fəaliyyət göstərir. Bu yanaşma, ABŞ-ın regionda uzunmüddətli təsirini artırmaq üçün mühüm bir strategiyadır. Həmçinin, ABŞ-ın regiondakı hərbi bazaları və təhlükəsizlik əməkdaşlığı vasitəsilə Mərkəzi Asiyada radikal islam təsirinin azalmasına çalışdığı da diqqət çəkir.

Mərkəzi Asiyanın geosiyasi əhəmiyyəti artdıqca, ABŞ bu regionda öz mövqeyini daha da möhkəmləndirmək üçün müxtəlif strategiyalar həyata keçirir. Bu yanaşma, yalnız regional sabitliyi təmin etməklə kifayətlənmir, eyni zamanda ABŞ-ın qlobal geosiyasi maraqlarını da gücləndirir. Nəticədə, Mərkəzi Asiya, beynəlxalq münasibətlər sistemindəki əhəmiyyətini qoruyaraq, ABŞ üçün strateji bir bölgə olaraq qalmaqdadır.

## ƏDƏBİYYAT


1. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752 s.
2. Məmmədli M. Mərkəzi Asiyada təhlükəsizlik mühiti regional geosiyasi proseslər kontekstində. (https://aircenter.az/uploads/files/Metin%20Memmedli%20tehlil.pdf)
3. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. Dərslik. Bakı: ADPU, 2010, 388 s.
4. Güneş Y. Orta Asya Cumhuriyetleri'nin Demografik Yapısı. Yüksek Lisans Tezi. Edirne. Trakya Üniversitesi, 2011, 118 s.
5. Kireçci M.,A. Amerika Birleşik Devletleri'nin Orta Asya Politikaları. Ankara. Türk-Kazak Üniversitesi, 2011, 64 s.
6. Özdemir H. Ab'nin ortak diş ve güvenlik politikası açısından Kazakıstan'ın bölgedeki önemi. Yüksek lisans tezi. İstanbul Üniversitesi, 2006, 177 s.
7. Blackwood M., A. Central Asia: Background and U.S. Relations. Congressional Research Service. September 24, 2021. 65 p.
8. Blank S. The Strategic Importance of Central Asia: An American View. 2008, 16 p.
9. Boyer A., L. U.S. Foreign Policy in Central Asia. Naval War College Review: Vol. 59: No. 1, Article. 28 p.
10. Yuldasheva G. The Role of Iran and the United States of America in Geopolitics of Central Asia. Monograph. Latvian Institute, 2017, 232 p.



***Резюме***

***Мехрадж Аллахвердиев***

***Политика США в Центральной Азии после распада СССР***

После распада СССР в 1991 году и обретения независимости постсоветскими государствами геостратегическое значение региона Центральной Азии привлекло внимание государств-гегемонов и международных организаций. В этом регионе всегда доминировали 2 основных фактора:

1.Поскольку Центральная Азия расположена на стыке Европы и Азии, признание ее основным коммуникационным и транспортным коридором в мире;

2.Владение геостратегической территорией, природными энергетическими ресурсами, сырьевыми и энергетическими запасами, а также дешевой рабочей силой, наличием широкого спектра возможностей сбыта.

Помимо двух перечисленных выше факторов, важность региона в вопросах международного мира и безопасности также привела его в центр мировой геополитики. Это, в свою очередь, стало одним из основных факторов для таких стран, как США, Европа, Китай, Япония, Россия, Турция и Иран, для реализации своих геополитических целей в Центральной Азии.

Склонность США к странам Центральной Азии связана с их особыми интересами в этом регионе.

Вопреки политике других государств, США пытаются создать спокойствие и демократизацию в этом регионе, разрешить внутренние конфликты мирным путем. Соединенные Штаты всегда пытались уменьшить влияние многих государств-гегемонов в Центральной Азии, таких как Россия и Иран, и позволить западным государствам контролировать их. При этом США будут поддерживать еще более тесные отношения со странами Центральной Азии и использовать поддержку стран региона в своих политических целях.

Основная цель нынешней политики США в Центральной Азии – использовать этот регион в качестве военной базы в конфликтах с Афганистаном, Ираном и Ираком, а также в терроризме. Поэтому США продолжают устанавливать различные военно-политические отношения со странами региона. В целом, за последние три десятилетия Соединенные Штаты целенаправленно предоставили более 9 миллиардов долларов прямой помощи странам Центральной Азии для поддержки безопасности, экономического развития и удовлетворения гуманитарных потребностей.

**Ключевые слова:** *США, Центральная Азия, СССР, Евразия, военное сотрудничество, экономическое сотрудничество, региональная интеграция*

***Summary***

***Mehraj Allahverdiyev***

***US Central Asia Policy After the Collapse of the USSR***

After the collapse of the USSR in 1991 and the post-Soviet states gained independence, the geostrategic importance of the Central Asian region has attracted the attention of hegemonic states and international organizations. Two main factors have always dominated this region:

1. Central Asia is located at the crossroads of Europe and Asia, making it recognized as the main communication and transport corridor in the world;

2. Possession of geostrategic territory, natural energy resources, raw materials and energy resources, as well as cheap labor, and the presence of wide sales opportunities.

In addition to the two factors listed above, the importance of the region in international peace and security issues has also brought it to the center of global geopolitics. This, in turn, has become one of the main factors for countries such as the United States, Europe, China, Japan, Russia, Turkey, and Iran to realize their geopolitical goals in Central Asia.

The United States' inclination towards the countries of Central Asia is related to its special interests in this region. Unlike the policies of other states, the United States is trying to create calm and democratization in this region and resolve internal conflicts peacefully. The United States has always sought to reduce the influence of many hegemonic states in Central Asia, such as Russia and Iran, and to allow Western states to control them. At the same time, the United States will maintain even closer ties with the countries of Central Asia and use the support of the countries of the region for its own political goals.

Currently, the main goal of the United States' Central Asian policy is to use this region as a military base in the conflicts with Afghanistan, Iran, and Iraq, as well as in terrorism. In order to get closer to the countries of Central Asia, the United States has repeatedly supported these countries, implementing democracy, governance, and economic support programs for their independence, sovereignty, and territorial integrity. In total, over the past three decades, the United States has directly allocated more than $9 billion to the countries of Central Asia to support security, economic development, and humanitarian needs.

**Key words:** *USA, Central Asia, USSR, Eurasia, military cooperation, economic cooperation, regional integration*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.